

olaraq yüksəlməyə başladı. Azərbaycanda demokratik siyasi və iqtisadi islahatların aparılması, insan hüquqlarının qorunması istiqamətində görülən işlər xalq tərəfindən birmənalı dəstəkləndi, beynəlxalq təşkilatlar tərəfindən razılıqla qarşılandı.

Rəsmi Bakı sivil dünyanın mütərəqqi siyasi və iqtisadi qurumları ilə əməkdaşlığını genişləndirdi. Ölkəmizdə söz, ifadə, mətbuat azadlığı sahəsində uğurlu addımlar atıldı. Ümummilli liderin rəhbərliyi altında yürüdülən düzgün daxili və xarici siyasət kursu qısa müddətdə ölkəni qlobal arenaya çıxara bildi. Azərbaycanın çağdaş tarixinin uğur və yüksəliş mərhələsi başlandı.

Xilaskar lider kimi tarixə möhür vuran Heydər Əliyevin layiqli varisi kimi Prezident İlham Əliyev həm YAP, həm də dövlət rəhbəri kimi bu yolu uğurla davam etdirdi. Yarandığı gündən Azərbaycanın inkişaf və tərəqqisini qarşıya məqsəd qoyan YAP müasir tariximizin şərəf və qürur salnaməsinin yazılmasında daim Prezidentimizlə birlikdə oldu.

30 il ərzində qatıldığı bütün seçkilərdə qalib gəlməsi faktı ilə YAP müasir dünya siyasi sistemində analoqu olmayan uğura da imza atıb. Bu, həm də xalqın ümumxalq partiyası sayılan siyasi təsisata inamının və etimadının göstəricisidir. Ümummilli liderin dövətçiliyimizin xilası, ölkəmizin tərəqqisi məramı ilə yaratdığı YAP bu gün ərazi bütövlüyünü təmin etmiş, regionun lider dövləti statusunu qazanmış güclü Azərbaycanın qurucu komandasıdır.

# Müstəqil dövlət quruculuğunun bayraqdarı

**Azərbaycanlılar siyasi təfəkkürü və tarixi situasiyaya düzgün reaksiyası ilə hər zaman öndə olublar. Şərqin ilk demokratik respublikasının qurulduğu Azərbaycan 70 ildən sonra dövlətçiliyini yenidən bərpa etməklə azadlığımıza qənim kəsilən qüvvələrin məkrli planlarını alt-üst edib.**

XX əsrdə ikinci dəfə dövlət müstəqilliyini elan edən Azərbaycan xalqı qazanılmış müstəqilliyini qoruyub möhkəmləndirmək üçün daxili və xarici qüvvələrə qarşı mübarizədə güclü lider və mütəşəkkil siyasi mərkəzin olmasının vacibliyini tarixi zərurət kimi dərk edirdi.

Sovet siyasi sistemin iflasından sonra yaranmış ideya–məfkurəvi boşluqda ayrı-ayrı pərakəndə qüvvələr ölkədə bir sıra siyasi partiyalar yaratmışdılar. Amma bu qurumlar nəinki ölkəni böhrandan çıxarmaq, hətta müstəqilliyi qorumaq gücündə deyildilər.

Lidersizlik və naşı rəhbərlik səbəbindən Azərbaycanda ictimai-siyasi vəziyyət çox ağır idi. Ölkədə xaos, özbaşınalıq, intizamsızlıq baş alıb gedirdi. Bir yandan da separatizm meyilləri ortaya çıxmışdı. Müstəqil Azərbaycan dövləti vətəndaş müharibəsinə sürüklənir, uçuruma yuvarlanırdı. Həmin ağır dönəmdə xalqın qarşısında taleyüklü suallar yarandı: Nə etməli? Vəziyyətdən necə çıxmalı?

Xoşbəxtlikdən, çıxış yolu vardı. Bu yolu ulu öndər Heydər Əliyev tapdı. Vətənin xilası naminə sağlam qüvvələrlə birgə çıxış yolları axtaracağı aşkar idi. Xalq birmənalı şəkildə qurtuluş və xilas yolunun yalnız bu dahi, qüdrətli şəxsiyyətə bağlılığına əmin oldu.

Xalqın bu qəti qənaəti müstəqilliyin elan edilməsinin birinci ildönümü günlərində zamanın sosial sifarişi kimi meydana çıxdı. Azərbaycanın 91 nəfər tanınmış, nüfuzlu ziyalısı ölkə əhalisinin iradəsini əks etdirən məktubla Heydər Əliyevə müraciət edərək onun rəhbərliyi ilə güclü bir partiya yaradılmasının zəruriliyini bəyan etdi. O zaman ümummilli lider Heydər Əliyev siyasətə qayıtmaq istəmirdi, amma həyatından çox sevdiyi xalqının taleyinə də biganə qala bilmədi. Ulu öndər yeni partiyanın qurulmasına razılıq verdi və müstəqil Azərbaycanın taleyində xilaskarlıq rolu oynayacaq siyasi qurumun sədri seçildi. Beləliklə 1991-ci ilin noyabrında Naxçıvanda təsis edilən Yeni Azərbaycan Partiyası, sözün həqiqi mənasında, xalqımızı qurtuluş və inam ünvanına, onun arzu və istəklərini özündə ehtiva edən nəhəng hərəkat rəmzinə çevrildi.

Bir məqamı da yada salmaq istəyirəm. Partiyanın elan olunduğu zaman ölkəmiz iqtisadi, siyasi böhran içində boğulurdu. Lakin dahi siyasətçi Heydər Əliyev hakimiyyətə qayıtmaqla böyük fəlakəti sovuşdurdu. 1993-cü ilin payızında ümummilli liderin müstəqil Azərbaycan dövlətinin Prezidenti seçilməsi ilə Azərbaycanda milli-dövlətçilik quruculuğu başlandı. Əsl xalq liderinin gərgin fəaliyyəti və müdrik qərarları ilə Azərbaycanda sabitlik və qayda-qanun bərpa olundu. Bu, xalqın öz böyük liderinə tam inanması, ona böyük inam və etimad göstərməsi, dəstək verməsi nəticəsində mümkün oldu.

Ulu öndər Heydər Əliyevin ən böyük arzusu milli istiqalılımızın əbədilyini təmin etmək idi. Böyük rəhbər bildirirdi ki, dövlət müstəqilliyini qorumaq onu əldə etməkdən daha çətindir. Məhz Heydər Əliyevin misilsiz dühası sayəsində Azərbaycanda milli dövlətçiliyin bütün atributları gücləndirildi. 1995-ci ildə onun təşəbbüsü və rəhbərliyi ilə müstəqil dövlətin ilk konstitusiyası qəbul olundu. Bununla da Azərbaycan xalqı sivil, hüquqi dövlət qurmaqda qərarlı olduğunu bütün dünyaya bəyan etdi.

Xalqımızın müstəqil dövlətin qorunması və yüksəlişi üçün vacib bildiyi güclü lider–mütəşəkkil siyasi mərkəz tandemi fəaliyyətə başladı. YAP ölkənin peşəkar və vətənpərvər komandasını formalaşdıran siyasi mərkəz kimi dövlət idarəçiliyini öz üzərinə götürdü və yox olmaq təhlükəsi ilə üzüzə qalan müstəqil Azərbaycan iqtisadi və siyasi yüksəliş yoluna qədəm qoydu.

Azərbaycan dövlətinin nüfuzu təkcə öz coğrafi ərazisində deyil, beynəlxalq aləmdə də davamlı

Qarabağ uğrunda Vətən müharibəsinin qalibi güclü siyasi lider Prezident İlham Əliyevin rəhbərlik etdiyi bu siyasi komanda müstəqil dövlətin öncül siyasi qüvvəsidir. Bu qüvvə ötən illərdəki kimi, bu gün də yüksəlişdədir. YAP-ın tarixi, əslində, həm də müstəqil dövlətimizin uğur tarixidir. Elə bir tarix ki, bundan sonra da politoloqlar və siyasi analitiklər uğur tarixi kimi öyrənəcək və təbliğ edəcəklər.

YAP xalqın tarixi inamını tam doğruldaraq, sözün əsl mənasında yeni Azərbaycan qurdu. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin davam etdirdiyi quruculuq və inkişaf yolu bu gün də uğurla davam etdirilir. Güclü liderlə güclü siyasi mərkəzin vəhdəti daha güclü Azərbaycan yaradır.

Azərbaycan tarix boyu heç vaxt bu qədər güclü və qüdrətli olmayıb. İlham Əliyevin liderliyi ilə regionda tarixi ədaləti bərpa edən ölkəmiz Cənubi Qafqazda sülhün, sabitliyin, inkişaf və tərəqqinin aparıcı qüvvəsi, lokomotividir.

Azərbaycanın parlaq uğurlarında Yeni Azərbaycan Partiyasının, onun ölməz lideri ulu öndərin parlaq imzası var. Milli ideologiyanın, siyasi fikir tarixinin bayraqdarı olan YAP xilaskarlıq missiyası ilə həm də xalqımızın mənəvi sərvətidir. Partiyanın 30 illik yubileyi ölkəmizdə ümumxalq təntənələri ilə qeyd edilir. YAP-ın partiya olaraq yaradılması və bugünkü varlığı xalqımızın böyük mənəvi-siyasi potensialıdır.

30 illik uğurlu fəaliyyətə nəzər saldıqda bir daha aydın olur ki, YAP dünənin, bu günün və gələcəyin partiyası olaraq qarşısına qoyduğu bütün hədəflərə nail olan mükəmməl bir siyasi təsisatdır. Xalqımız əmindir ki, Yeni Azərbaycan Partiyasının Sədri, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmiz qüdrətli dövlət və yüksək inkişaf etmiş cəmiyyət naminə müqəddəs missiyasını bundan sonra da şərəf və ləyaqətlə yerinə yetirəcəkdir.

**Amin İSMAYILOV,**
**AMEA-nın müxbir üzvü, professor,**
**YAP İdarə Heyətinin üzvü**